# HÖKUMƏTİN NAİLİYYƏTLƏRİ

<"xml encoding="UTF-8?>

## HÖKUMƏTİN NAİLİYYƏTLƏRİ

Ayrı-ayrı şəxslər və cəmiyyətlər hökumətə çatmazdan və qüdrəti ələ almazdan qabaq öz hökumətləri üçün müəyyən proqramlar tökür, çox hallarda o hədəflərə çatmaq üçün öz proqramlarını da e`lan edirlər. Amma, adətən, qüdrət və hakimiyyətə çatdıqdan və zamanın keçməsindən sonra öz hədəflərinə nail ola bilmir və bə`zi hallarda dedikləri sözlərdən dönürlər, .yaxud əvvəlcədən irəli sürdükləri proqram və hədəfləri tamamilə unudurlar

Əvvəlcədən tə`yin olunmuş hədəf və arzulara nail olmamağın səbəbi ya bu ola bilər ki, hədəfləri həqiqi və pirinsipial olmamışdır; yaxud da ki, hədəfə çatmaq üçün hökumət proqramları əhatəli və kamil olmamışdır, çox hallarda da bu müvəffəqiyyətsizliyin səbəbi icraçıların ləyaqətsizliyi .olmuşdur

İmam Məhdi (ə)-ın hökumətində hədəflər həqiqi və əsldir, bəşəriyyətin vicdanında dərin köklər atmışdır, hamı da bu arzulara çatmaq ümidi ilə yaşayır. Proqramlar da Qur`an hökümləri və Əhli-beyt sünnəsinin tə`limləri əsasında tənzim edilmişdir ki, bütün sahəələrdə onların icra olunmasına tə`minat verilir. Buna əsasən, bu böyük inqilabın naliyyətləri nəzərə çarpacaq dərəcədə böyük və diqqət yetiriləsidir. Bir cümlədə demək olar ki, imam Məhdi (ə)-ın hökumətinin naliyyətləri insanların maddi və mə`nəvi ehtiyaclarını Allah Taala tərəfindən insanın .vücudunda əmanət qoyulan ehtiyacları tə`min edəcəkdir

:Burada imam Məhdi (ə)-ın hakimiyyətinin naliyyətlərindən bə`zilərini qeyd edirik

### Geniş miqyaslı ədalət-1

Çoxlu rəvayətlərdə imam Məhdi (ə)-ın inqilab və qiyamının ən mühüm nailiyyətləri kimi dünyanın haqq-ədalətlə dolması qeyd edilir ki, hökumətin hədəfləri bölməsində onun barəsində söhbət etdik. Amma bu bölmədə, əvvəldə qeyd olunan həqiqətə digər bir məsələni də artırırıq ki, Ali-Muhəmmədin (s) Qaiminin hakimiyyəti dövründə ədalət cəmiyyətin bütün yönlərində və səthlərində icrada olan bir cərəyan formasına düşəcək, elə bir böyüklü-kiçikli məcmuə təşkilat və qurum qalmayacaqdır ki, onda ədalət hakim olmasın. Həmin dövrdə insanlar arasında

.əlaqələr məhz bu məsələ əsasında qurulacaqdır

İmam Sadiq (ə) bu barədə buyurur: «Allaha and olsun! Soyuq və isti, evlərin içinə daxil olduğu kimi, ədaləti camaatın evlərinin içinə aparacaqdır.»[1]

Cəmiyyətdə ən kiçik ictimai qurum olan ailənin ədalət mərkəzinə çevrilməsi və ailə üzvlərinin bir-biri ilə olan əlaqələri ədalətli şəkildə bərqərar olunması bunu göstərir ki, Həzrəti Məhdi (ə)-ın dünya səviyyəli ədalət hökuməti zor gücünə deyil, əksinə Qur`anın bəyan etdiyi bir tərbiyəvi prinsip əsasında daxil olacaqdır. Belə ki, Allah Taala insanlara ədalətli olmağı və ehsan etməyi əmr edir.[2] İmam (ə) insanları bu qanun əsasında tərbiyə edəcək və belə bir fəzada bütün insanlar ilahi və insani vəzifəsinin hökmü ilə başqalarının hüquqlarına, hətta rütbə və məqam .baxımından heç bir ictimai mövqeyə malik olmasa belə, hörmət qoyacaqdır

Məhdi (ə)-ın quracağı cəmiyyətdə ədalət Qur`an əsasında olan əsl bir mədəniyyətdir, onu yalnız öz şəxsi mənfəətini güdən Qur`an və əhli-beyt tə`limlərindən kənarda tərbiyə alan azsaylı insanlar poza bilər ədalətsevərlik hakimiyyəti bu az saylı qruplarla ciddi şəkildə mübarizə aparacaq, onların inkişaf edib kök atmasına heç bir vəch ilə icazə verməyəcək, xüsusilə onların hakimiyyət səviyyəsinə nüfuz etməsinin qarşısını alacaqdır. Bəli, belə bir genişsəviyyəli və hərtərəfli əhatə edən ədalət Məhdi (ə)-ın hökumətinin əldə etdiyi nailiyyətlərdəndir və beləliklə də o həzrətin inqilabının ən ali və dünya səviyyəsində ədalətin bərqərar edilməsindən ibarət olan hədəfi kamil şəkildə həyata geçəcək, zülm, haqsızlıq, başqalarının haqqına təcavüz etmək və s. cəmiyyətin bütün sahələrindən, hətta ailə üzvlərinin bir-biri ilə qarşılıqlı əlaqələrindən belə, .götürüləcəkdir

## İnsanların ideoloji, əlaqi və imani cəhətdən inkişaf edib təkamülə çatması-2

Əvvəlki bölmədə qeyd etdik ki, cəmiyyətdə ədalətin bütün yönləri əhatə etməsi insanların düzgün tərbiyəsi, cəmiyyətdə Qur`anla Əhli-beyt mədəniyyətinin yayılması ilə baş verəcəkdir. İmam Məhdi (ə)-ın hakimiyyəti dövründə çoxlu rəvayətlərdə insanların ideoloji, əxlaqi və imani .cəhətdən inkişaf etməsi aşkar şəkildə bəyan edilmişdir

İmam Baqir (ə) buyurur: «Bizim Qaim qiyam edən zaman özünün (mərhəmətli) əllərini Allah bəndələrinin başına çəkəcək, onun bərəkəti ilə insanların əql qüvvələri kamala çatacaqdır.»[3]

Bütün yaxşılıqlar və gözəlliklər insan əqlinin kamala çatması ardınca əldə olunur, çünki əql insanın daxili yol göstərəni –peyğəmbəridir ki, onun insanın ruh və cisminə hakim kəsildiyi surətdə insanın təfəkkür və əməli inkişafa, düzlüklərə və təkamülə doğru hidayət olunacaq,

.Allaha bəndəçilik yolu –həqiqi səadətə çatmaq yolu açılacaqdır

İmam Sadiq (ə)-dan «əql nədir?» –deyə soruşulduqda, həzrət buyurdu: «Əql o şeydir (həqiqətdir) ki, onun vasitəsi ilə Allaha ibadət edilir və onun (yol göstərməsi) vasitəsilə cənnət [əldə olunur.»[4

Bəli, bugünkü cəmiyyətlərdə imamın olmadığı və hakimiyyətdə olmadığı cəmiyyətdə şəhvət qüvvələri əqlə qələbə çalmış, inadkar nəfs və onun istəkləri insanın və ayrı-ayrı qrupların yeganə hakiminə çevrilmişdir, bu vəziyyətin nəticəsi də ayrı-ayrı insanların hüquqlarının aradan getməsi, ilahi dəyərlərin unudulmasından ibarətdir. Lakin və`dəsi verilən ilahi ədalət hakimiyyəti dövranında Allah höccətinin hakimiyyəti nəticəsində –o, külli əqldən ibarətdir –insanların əql qüvvələri bütün tədbirlərinin sükanını əlinə alacaq, kamala çatmış əql insana yaxşılıqlardan və .gözəlliklərdən başqa heç bir fərman verməyəcəkdir

---

Biharul-ənvar. 52-ci cild, səh. 362 [1]

ان الله يأمر بالعدل والاحسان yə`ni «həqiqətən Allah Taala insanları ədalətə :Qur`anda buyurulur [2] və yaxşılığa əmr edir.» Nəhl surəsi, 90

Biharul-ənvar, 52-ci cild, hədis 71, səh. 336 [3]

Kafi, 1-ci cild, 3-cü hədis, səh. 58 [4]

# HÖKUMƏTİN NAİLİYYƏTLƏRİ

Ayrı-ayrı şəxslər və cəmiyyətlər hökumətə çatmazdan və qüdrəti ələ almazdan qabaq öz hökumətləri üçün müəyyən proqramlar tökür, çox hallarda o hədəflərə çatmaq üçün öz proqramlarını da e`lan edirlər. Amma, adətən, qüdrət və hakimiyyətə çatdıqdan və zamanın keçməsindən sonra öz hədəflərinə nail ola bilmir və bə`zi hallarda dedikləri sözlərdən dönürlər, .yaxud əvvəlcədən irəli sürdükləri proqram və hədəfləri tamamilə unudurlar

Əvvəlcədən tə`yin olunmuş hədəf və arzulara nail olmamağın səbəbi ya bu ola bilər ki, hədəfləri həqiqi və pirinsipial olmamışdır; yaxud da ki, hədəfə çatmaq üçün hökumət proqramları əhatəli və kamil olmamışdır, çox hallarda da bu müvəffəqiyyətsizliyin səbəbi icraçıların ləyaqətsizliyi

.olmuşdur

İmam Məhdi (ə)-ın hökumətində hədəflər həqiqi və əsldir, bəşəriyyətin vicdanında dərin köklər atmışdır, hamı da bu arzulara çatmaq ümidi ilə yaşayır. Proqramlar da Qur`an hökümləri və Əhli-beyt sünnəsinin tə`limləri əsasında tənzim edilmişdir ki, bütün sahəələrdə onların icra olunmasına tə`minat verilir. Buna əsasən, bu böyük inqilabın naliyyətləri nəzərə çarpacaq dərəcədə böyük və diqqət yetiriləsidir. Bir cümlədə demək olar ki, imam Məhdi (ə)-ın hökumətinin naliyyətləri insanların maddi və mə`nəvi ehtiyaclarını Allah Taala tərəfindən insanın .vücudunda əmanət qoyulan ehtiyacları tə`min edəcəkdir

:Burada imam Məhdi (ə)-ın hakimiyyətinin naliyyətlərindən bə`zilərini qeyd edirik

## Geniş miqyaslı ədalət-1

Çoxlu rəvayətlərdə imam Məhdi (ə)-ın inqilab və qiyamının ən mühüm nailiyyətləri kimi dünyanın haqq-ədalətlə dolması qeyd edilir ki, hökumətin hədəfləri bölməsində onun barəsində söhbət etdik. Amma bu bölmədə, əvvəldə qeyd olunan həqiqətə digər bir məsələni də artırırıq ki, Ali-Muhəmmədin (s) Qaiminin hakimiyyəti dövründə ədalət cəmiyyətin bütün yönlərində və səthlərində icrada olan bir cərəyan formasına düşəcək, elə bir böyüklü-kiçikli məcmuə təşkilat və qurum qalmayacaqdır ki, onda ədalət hakim olmasın. Həmin dövrdə insanlar arasında .əlaqələr məhz bu məsələ əsasında qurulacaqdır

İmam Sadiq (ə) bu barədə buyurur: «Allaha and olsun! Soyuq və isti, evlərin içinə daxil olduğu [kimi, ədaləti camaatın evlərinin içinə aparacaqdır.»[1

Cəmiyyətdə ən kiçik ictimai qurum olan ailənin ədalət mərkəzinə çevrilməsi və ailə üzvlərinin bir-biri ilə olan əlaqələri ədalətli şəkildə bərqərar olunması bunu göstərir ki, Həzrəti Məhdi (ə)-ın dünya səviyyəli ədalət hökuməti zor gücünə deyil, əksinə Qur`anın bəyan etdiyi bir tərbiyəvi prinsip əsasında daxil olacaqdır. Belə ki, Allah Taala insanlara ədalətli olmağı və ehsan etməyi əmr edir.[2] İmam (ə) insanları bu qanun əsasında tərbiyə edəcək və belə bir fəzada bütün insanlar ilahi və insani vəzifəsinin hökmü ilə başqalarının hüquqlarına, hətta rütbə və məqam .baxımından heç bir ictimai mövqeyə malik olmasa belə, hörmət qoyacaqdır

Məhdi (ə)-ın quracağı cəmiyyətdə ədalət Qur`an əsasında olan əsl bir mədəniyyətdir, onu yalnız öz şəxsi mənfəətini güdən Qur`an və əhli-beyt tə`limlərindən kənarda tərbiyə alan azsaylı insanlar poza bilər ədalətsevərlik hakimiyyəti bu az saylı qruplarla ciddi şəkildə mübarizə aparacaq, onların inkişaf edib kök atmasına heç bir vəch ilə icazə verməyəcək, xüsusilə onların

hakimiyyət səviyyəsinə nüfuz etməsinin qarşısını alacaqdır. Bəli, belə bir genişsəviyyəli və hərtərəfli əhatə edən ədalət Məhdi (ə)-ın hökumətinin əldə etdiyi nailiyyətlərdəndir və beləliklə də o həzrətin inqilabının ən ali və dünya səviyyəsində ədalətin bərqərar edilməsindən ibarət olan hədəfi kamil şəkildə həyata geçəcək, zülm, haqsızlıq, başqalarının haqqına təcavüz etmək və s. cəmiyyətin bütün sahələrindən, hətta ailə üzvlərinin bir-biri ilə qarşılıqlı əlaqələrindən belə, .götürüləcəkdir

## İnsanların ideoloji, əlaqi və imani cəhətdən inkişaf edib təkamülə çatması-2

Əvvəlki bölmədə qeyd etdik ki, cəmiyyətdə ədalətin bütün yönləri əhatə etməsi insanların düzgün tərbiyəsi, cəmiyyətdə Qur`anla Əhli-beyt mədəniyyətinin yayılması ilə baş verəcəkdir. İmam Məhdi (ə)-ın hakimiyyəti dövründə çoxlu rəvayətlərdə insanların ideoloji, əxlaqi və imani .cəhətdən inkişaf etməsi aşkar şəkildə bəyan edilmişdir

İmam Baqir (ə) buyurur: «Bizim Qaim qiyam edən zaman özünün (mərhəmətli) əllərini Allah [bəndələrinin başına çəkəcək, onun bərəkəti ilə insanların əql qüvvələri kamala çatacaqdır.»[3

Bütün yaxşılıqlar və gözəlliklər insan əqlinin kamala çatması ardınca əldə olunur, çünki əql insanın daxili yol göstərəni –peyğəmbəridir ki, onun insanın ruh və cisminə hakim kəsildiyi surətdə insanın təfəkkür və əməli inkişafa, düzlüklərə və təkamülə doğru hidayət olunacaq, .Allaha bəndəçilik yolu –həqiqi səadətə çatmaq yolu açılacaqdır

İmam Sadiq (ə)-dan «əql nədir?» –deyə soruşulduqda, həzrət buyurdu: «Əql o şeydir (həqiqətdir) ki, onun vasitəsi ilə Allaha ibadət edilir və onun (yol göstərməsi) vasitəsilə cənnət [əldə olunur.»[4

Bəli, bugünkü cəmiyyətlərdə imamın olmadığı və hakimiyyətdə olmadığı cəmiyyətdə şəhvət qüvvələri əqlə qələbə çalmış, inadkar nəfs və onun istəkləri insanın və ayrı-ayrı qrupların yeganə hakiminə çevrilmişdir, bu vəziyyətin nəticəsi də ayrı-ayrı insanların hüquqlarının aradan getməsi, ilahi dəyərlərin unudulmasından ibarətdir. Lakin və`dəsi verilən ilahi ədalət hakimiyyəti dövranında Allah höccətinin hakimiyyəti nəticəsində –o, külli əqldən ibarətdir –insanların əql qüvvələri bütün tədbirlərinin sükanını əlinə alacaq, kamala çatmış əql insana yaxşılıqlardan və .gözəlliklərdən başqa heç bir fərman verməyəcəkdir

[1] Biharul-ənvar. 52-ci cild, səh. 362

[2] Qur`anda buyurulur: ان الله يأمر بالعدل والاحسان yə`ni «həqiqətən Allah Taala insanları ədalətə və yaxşılığa əmr edir.» Nəhl surəsi, 90

[3] Biharul-ənvar, 52-ci cild, hədis 71, səh. 336

[4] Kafi, 1-ci cild, 3-cü hədis, səh. 58